**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# KLASSİK RUS VƏ AZƏRBAYCAN NƏSRİNDƏ PSİXOLOGİZM (ANTON PAVLOVİÇ ÇEXOV VƏ CƏLİL MƏMMƏDQULUZADƏ YARADICILIĞI ƏSASINDA)

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (Rus ədəbiyyatı)

Elm sahəsi: Filologiya

İddiaçı: **Tamam Əli qızı İsmayılova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2026**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Cəlil Qərib oğlu Nağıyev** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Lalə Fərman qızı Əhmədova** |
| | filologiya elmləri doktoru, professor<br>**Telman Həmzağa oğlu Cəfərov** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Lalə Rasim qızı Əfəndiyeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Slavyan Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.13 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | filologiya elmləri doktoru, professor<br>**Fikrət Fətiş oğlu Cahangirov** |
| Dissertasiya şurasının elmi katibi: | filologiya elmləri üzrə fəlsəfə doktoru<br>**Suad Arif qızı Əfəndiyeva** |
| Elmi seminarın sədri: | filologiya elmləri doktoru, professor<br>**Bella Sirac qızı Musayeva** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir insanın tədqiqində klassik ədəbiyyatın təcrübəsinin öyrənilməsinin mühüm əhəmiyyəti var. Ümumən bugün ədəbiyyatda psixologizm hadisəsinin rəngarəng təzahürü onun qaynaqlarının öyrənilməsini, klassik təcrübənin tarixi və nəzəri baxımdan dərk olunması problemini aktuallaşdırmışdır. Bədii ədəbiyyatda psixologizmin fəlsəfi-etik, ideya-mənəvi köklərinin üzə çıxarılması, bədii ifadə üsullarının araşdırılması müasir sənətin dərkində mühüm amildir.

XIX əsr rus realist nəsrinin psixologizm təcrübəsi A.S.Puşkin, M.Y.Lermontov, N.V.Qoqol, İ.S.Turgenev, M.Y.Saltıkov-Şedrin və b. yazıçıları yetişdirmiş, o cümlədən L.N.Tolstoy, F.M.Dostoyevski, A.P.Çexov kimi yazıçı-psixoloqlar dünya realizminin zirvəsinə yüksəlmişlər. Rus ədəbiyyatşünaslığı yarandığı dövrdən günümüzə qədər realizmin təcrübəsini geniş tədqiq etmiş, o cümlədən klassik ədəbiyyatda psixologizm məsələsinə dair həm ayrı-ayrı yazıçıların yaradıcılığı əsasında, həm də ümumilikdə realist nəsrin təsrübəsi əsasında araşdırmalar aparmışlar[1].

Azərbaycan realizm ədəbiyyatı M.P.Vaqifdən M.Ə.Sabirə qədər poeziyada, M.F.Axundzadədən "Molla Nəsrəddin" məktəbinə qədər nəsrdə, dramaturgiyada və publisistikada böyük yol keçmiş, A.Bakıxanov, Q.Zakir, İ.Qutqaşınlı, S.Ə.Şirvani, N.Vəzirov,

---

[1] Карлова, Т.С. Вопросы психологического анализа в наследии Л.Н.Толстого / Т.Карлова. – Казань: Изд-во Казанского ун-та, – 1959. – с. 68; Шевченко, Г.Г. О своеобразии метода психологического анализа в романе М.Ю.Лермонтова "Герой нашего времени" // Уч. зап. Харьковского ун-та: Труды филологического факультета. – Харьков: Изд-во Харьковского ун-та, – 1962. – Т.16. – с.73-95; Чирков, Н.М. Писатель-психолог // О стиле Достоевского. – Москва: Изд-во АН СССР. – 1963. – с.58-79.; Бочаров, С.Г. Л.Толстой и новое понимание человека. "Диалектика души" // Литература и новый человек. – Москва: Изд-во АН СССР, – 1963. – с.224-308; Карякина, А.В. Историко-литературные основы и эстетически-этические принципы психологизма Чернышевского // Проблемы жанра и стиля. – Уфа: Изд-во Башкирского ун-та, – 1970. – с.271-286; Бахтин, М. Проблемы поэтики Достоевского / М.Бахтин. – Изд-е 3-е. – Москва: Художественная литература, – 1972. – 469 с.; Осмоловский, О.Н. Достоевский и русский психологический роман / О.Н.Осмоловский. – Кишинев: Штиинца, – 1981. – 166 с.

N.Nərimanov, Z.Marağayi, S.M.Qənizadə, M.S.Ordubadi və b. yazıçıların yaradıcılığında əhatə olunmuşdur. Psixologizmin təzahürü isə ən çox və sistemli şəkildə C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminlinin adı ilə bağlı olan tənqidi realist nəsrdə təsbit tapmışdır. Azərbaycan ədəbiyyatşünaslığında klassik realist ədəbiyyatın tədqiqi kifayət qədər olsa da, rus ədəbiyyatşünaslığından fərqli olaraq, psixologizm probleminə lazımınca diqqət yetirilməmişdir.

Daha geniş şəkildə psixologizm probleminin tədqiqi müasir ədəbiyyatla bağlı araşdırmalarda ehtiva olunmuşdur.[2] Azərbaycan nəsrində psixologizmə dair ayrıca monoqrafiya – Muxtar İmanovun "Müasir Azərbaycan nəsrində psixologizm (1960-70-ci illər)" əsəri yaranmışdır[3]. Müstəqillik illərində dəyərlərin dəyişməsi ədəbiyyatda insan amilinə diqqəti artırmış, psixologizm problemini daha da aktuallaşdırmışdır. Nərgiz Paşayevanın "İnsan bədii tədqiq obyekti kimi (Xalq yazıçısı Elçinin yaradıcılığı əsasında)" monoqrafiyası problemin dərkində metodoloji əhəmiyyət kəsb edir.[4]

Azərbaycan realist ədəbiyyatında Çexov yaradıcılığının böyük təsiri və əks-sədası olmuşdur. İlk realist Azərbaycan hekayəçiləri C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli böyük rus ədəbiyyatından öyrəndikləri kimi, Çexov əsərlərindən də yaradıcı şəkildə bəhrələnmiş, milli ədəbiyyatda psixologizmin əsasını qoymuşlar. Çexovun nəsri və dramaturgiyası müasir Azərbaycan ədiblərinə də səmərəli təsir göstərmişdir. Klassik Azərbaycan nəsrinin, o cümlədən C.Məmmədquluzadə irsinin Çexov yaradıcılığı ilə müqayisədə öyrənilməsi bu məqamları üzə çıxarmağa, psixoloji nəsrin və ədəbiyyatda psixologizmin tədqiqinə təkan verə bilər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini klassik rus və Azərbaycan ədəbiyyatlarında psixologizmin təzahür xüsusiyyətləri, tədqiqatın predmetini konkret olaraq Anton Pavloviç

---

[2] Quliyev, V. Müasir Azərbaycan nəsrinin üslub rəngarəngliyi: / namizədlik dis. / – 1982; Hüseynoğlu Tofiq, Nəsrdə psixologizm // Ədəbiyyat qəzeti. – 1998, 13 yanvar; Aran, S.A. 1960-1980-ci illər Azərbaycan nəsrində psixologizm (Mövlud Süleymanlının yaradıcılığı üzrə) / S.Aran. – Bakı: Elm, – 2004, – 141 s.

[3] İmanov, M.K Müasir Azərbaycan nəsrində psixologizm: (1960-70-ci illər) / M.İmanov. – Bakı: – 2021. – s.116.

[4] Paşayeva, N.A. İnsan bədii tədqiq obyekti kimi (Xalq yazıçısı Elçinin yaradıcılığı əsasında) / N.Paşayeva. – Bakı: XXI-YNE, – 2003. – 256 s.

Çexov və Cəlil Məmmədquluzadə nəsrində psixologizmin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi müasir ədəbiyyatın bədii nailiyyətlərindən olan psixologizmin inkişafında klassik rus və Azərbaycan ədəbiyyatlarının təcrübəsinə nəzər salmaqdan, A.P.Çexov və Cəlil Məmmmədquluzadə nəsrinin nümunəsində realizm ədəbiyyatında psixologizmin yerini və rolunu araşdırmaqdan ibarətdir. Habelə həmin konteksdə qarşılıqlı və tipoloji əlaqələrin müəyyənləşdirilməsi, üzə çıxarılması da tədqiqatın məqsədinə daxildir. Rus ədəbiyyatşünasları tərəfindən Çexovun ədəbi irsi, Azərbaycan ədəbiyyatşünaslığında C.Məmmədquluzadə yaradıcılığı geniş öyrənilsə də, tədqiqat hər iki sənətkarın insanın daxili aləminin inikasında özünəxas psixologizmini araşdırmağı, oxşar və fərqli cəhətləri üzə çıxarıb səciyyələndirməyi məqsəd seçmişdir. Buradan irəli gələn vəzifələri aşağıdakı şəkildə təsnifləndirmək olar:

- Ədəbiyyatda psixologizm anlayışının nəzəri statusunu müəyyənləşdirərək, formalaşma tarixini nəzərdən keçirmək;

- klassik rus və Azərbaycan ədəbiyyatlarında psixologizmin təzahür üsulları və inkişaf tarixinə nəzər salmaq;

- rus realist ədəbiyyatında psixologizmin meydana çıxmasını A.P.Çexov yaradıcılığı ilə əlaqəli izləmək; o cümlədən Çexov psixologizminin M.Y.Lermontov, N.V.Qoqol, İ.S.Turgenev, M.Y.Saltıkov-Şedrin, M.F.Dostoyevski, L.N.Tolstoy psixologizmindən fərqli cəhətlərini ümumiləşdirmək;

- A.P.Çexov yaradıcılığını dünya ədəbiyyatı kontekstində səciyyələndirərək, yazıçının psixologizminin G.Mopassan, E.Zolya, Qonkur qardaşları, M.Prust kimi realist və modernist yazıçılarla əlaqəli cəhətlərini müəyyənləşdirmək;

- klassik Azərbaycan nəsrinə realist rus ədəbiyyatının təsirini nəzərdən keçirmək, o cümlədən A.P.Çexov psixologizminin C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli kimi realist hekayəçilər tərəfindən yaradıcı şəkildə mənimsənilməsini araşdırmaq;

- C.Məmmədquluzadə psixologizminin xüsusiyyətlərini realist Azərbaycan ədəbiyyatının kontekstində tədqiq etmək, Çexov realizmi ilə tipoloji əlaqələrini müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqat tarixi-müqayisəli və tipoloji metodla aparılmışdır. Habelə dissertasiyada müasir ədəbiyyatşünaslığın nailiyyətlərindən metodoloji əsas kimi istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Psixologizm ədəbiyyat və sənətdə insanın mənəvi aləminin tədqiq vasitələrindən biridir. Realizm ədəbiyyatında ayrıca bədii məzmun və ifadə kateqoriyası kimi meydana çıxana qədər psixologizmin antik dövrdən XIX əsrə qədər keçdiyi təşəkkül tarixi mövcuddur;
- Klassik rus və Azərbaycan ədəbiyyatlarında psixologizmin sistematik və tam təzahürü XIX-XX əsrlər tənqidi realizm cərəyanı ilə bağlıdır. A.P.Çexov və Cəlil Məmmmədquluzadə yaradıcılığı bu ədəbiyyatın zirvəsi olub, psixologizmin parlaq örnəklərini təqdim edir;
- Klassik rus ədəbiyyatında psixologizm Qərb ədəbiyyatı ilə qarşılıqlı təsir və bəhrələnmə prosesində meydana çıxmış, dünya ədəbiyyatına Stendal, O.Balzak, Ç.Dikkens, G.Mopassan, Q.Flober və b.-ları ilə yanaşı, M.Y.Lermontov, N.V.Qoqol, İ.S.Turgenev, M.F.Dostoyevski, L.N.Tolstoy, A.P.Çexov kimi psixoloq-yazıçılar bəxş etmişdir;
- A.P.Çexovun yaradıcılıq poetikasında psixologizm mühüm yer tutur. Çexov realizmi özünəqədərki rus və dünya realist ədəbiyyatı kontekstində formalaşmış, yeni və orijinal xüsusiyyətlərlə fərqlənmişdir. Çexov psixologizminin özünəməxsusluğunda realist təcrübə ilə yanaşı, dövrünün modernist ədəbiyyatının təsiri də rol oynayır;
- Azərbaycan ədəbiyyatında psixologizmin yaranması C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli kimi realist yazıçıların adı ilə bağlıdır. Azərbaycan tənqidi realizmi XIX əsr rus realist ədəbiyyatından yaradıcı şəkildə bəhrələnməklə, folklor və klassik təcrübə zəminində orijinal nümunələr ortaya qoymuşdur;
- C.Məmmədquluzadə yaradıcılığında psixologizmin təzahürü A.P.Çexovun psixologizmi ilə eyni tipoloji xüsusiyyətlərə malikdir. C.Məmmədquluzadə yaradıcılığı özünəqədərki realist Azərbaycan və rus ədəbiyyatı klassiklərinin ədəbi irsində mövcud olmuş psixoloji təhlil üsulu və psixologizm təzahürlərinin zəngin çalarlarını yaradıcı

surətdə sintez etmiş, yaradıcılıq poetikasında folklordan gələn ünsürlərlə birləşdirmişdir.

- A.P.Çexov və C.Məmmədquluzadə yaradıcılığı milli realizmin yetkin mərhələsini təmsil edirlər. Çexov yaradıcılığına modernizm əlamətləri xas olduğu kimi, C.Məmmədquluzadənin son dövr yaradıcılığı da rəngarəng simvolistik vurğulara malikdir. Hər iki yazıçının psixologizminin məxsusi cəhətləri, təkrarsız xüsusiyyətləri zənginliyi ilə seçilir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat bir sıra yeniliklərlə səciyyələnir:

- ilk dəfə olaraq Azərbaycan klassik ədəbiyyatında psixologizm problemi rus ədəbiyyatı ilə qarşılıqlı əlaqədə araşdırılır;
- ilk dəfə olaraq C.Məmmədquluzadə yaradıcılığında psixologizm məsələsi Çexov psixologizmi ilə müqayisədə tədqiq olunur;
- C.Məmmədquluzadə və A.P.Çexov nəsri ilk dəfə olaraq geniş həcmdə müqayisəli təhlilə cəlb olunur;
- Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə A.P.Çexov nəsrinin psixologizmi realist rus nəsri və dünya ədəbiyyatı kontekstində nəzərdən keçirilir;
- psixologizm problemi ətrafında rus və dünya ədəbiyyatı, Azərbaycan və rus ədəbiyyatı tipoloji müqayisələrdə nəzərdən keçirilir, realizmin milli ədəbiyyatlarda inkişaf qanunauyğunluqları təsbit olunur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın elmi nəticələrindən klassik və müasir ədəbiyyatda psixologizm probleminin öyrənilməsində, habelə realizm ədəbiyyatının araşdırılmasında istifadə oluna bilər. Azərbaycan və rus ədəbiyyatlarının qarşılıqlı əlaqələrinə, habelə C.Məmmədquluzadə və A.P.Çexovun yaradıcılıq poetikasına dair tədqiqatlarda da dissertasiyanın nəticələrindən bəhrələnmək olar. Dissertasiya praktik olaraq ali məktəblərin filologiya fakültələrində müqayisəli ədəbiyyatşünaslıq fənlərində, C.Məmmədquluzadə və A.P.Çexovun yaradıcılığına dair xüsusi kurslarda istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas nəzəri müddəaları məqalə və tezis şəklində AAK-ın tələblərinə uyğun olaraq qəbul edilmiş məcmuə və jurnallarda, xarici ölkə mətbu orqanlarında, elmi konfranslardakı məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. Giriş 8 səhifə – 14667 işarə, I fəsil 32 səhifə – 64927 işarə, II fəsil 38 səhifə – 76455 işarə, III fəsil 42 səhifə – 82861 işarə, Nəticə 5 səhifə – 8781 işarə, istifadə olunmuş ədəbiyyat siyahısı 13 səhifə. Dissertasiya işi ümumilikdə 142 səhifə – 247691 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"** hissəsində dissertasiyanın aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti müəyyən edilir, mövzunun işlənmə dərəcəsi, müdafiəyə çıxarılan müddəalar təqdim olunur, işin strukturu və həcmi, elmi müddəaların aprobasiyası göstərlilir.

Dissertasiyanın **"Ədəbiyyatda psixologizm. Nəzəri və estetik əsasları"** adlanan birinci fəslində psixologizm anlayışının nəzəri və tarixi məzmununa aydınlıq gətirilir, ədəbiyyatda psixologizmin ayrıca bir kateqoriya kimi meydana çıxması tarixi nəzərdən keçirilir. Göstərilir ki, insan xarakteri və psixologiyası, insanın mənəvi-ruhi aləmi sənətin daimi predmeti olmuşdur. Bilavasitə insan psixikasını öyrənən elmin – psixologiyanın yaranmasından çox əvvəl sənət və bədii ədəbiyyat insanın ruhuna nüfuz etmiş, mənəvi varlığını ifadə etmişdir.

Dissertasiyada psixologizm anlayışının tarixi və nəzəri aspektdə şərhi iki istiqamətdə həyata keçirilmişdir. Birinci fəslin ***"Ədəbiyyatda psixologizmin yaranma tarixi və inkişaf mərhələləri"*** adlı paraqrafında ədəbiyyat tarixinin bu baxımdan bədii-estetik təcrübəsi nəzərdən keçirilmişdir. Belə ki, insanın ruh haqqında təsəvvürləri insanlığın tarixinin özü qədər qədimdir.

Qədim dövrdə insan ruhu haqqında biliklər fəlsəfi və bədii ədəbiyyatda paralel şəkildə inkişaf etmişdir. Bunu Sokratın, Platonun, Aristotelin əsərləri ilə yanaşı, antik yunan ədəbiyyatı nümunələri də

göstərir. Ruhun əbədiyyəti haqqında təsəvvürlər qədim Azərbaycan abidəsi "Avesta"dan da keçir. Həm də burda ruhun ölməzliyi yalnız kainatda və təbiətdə təzahür edən mövhum qüvvələrdə deyil, bilavasitə insanın varlığında, düşüncə və əməlllərində də axtarılır. Ruh dünyası ilə materiya arasında toqquşma bütün xalqların mifoloji və epik ənənələrində yer almış, qəhrəmanların taleyini həll etmişdir. "Kitabi-Dədə Qorqud" boylarında yaşanan xarici və daxili münaqişələr, ata-oğul münasibətlərindəki ziddiyyətlər ilkin psixologizmin izlərini daşıyır. Gərgin psixoloji toqquşmalar xarakterlərin açılmasına kömək edir.

İntibah mədəniyyəti orta əsrlərin Allah-mərkəzçi dünyagörüşünün bitdiyi yerdə, insan-mərkəzçi dünyəvi baxışların formalaşdığı zaman yaranmışdır. Əslində, elmi psixologiyanın yaranmasına doğru addımlar məhz intibah dövrünün elmi və bədii kəşflərindən başlanır. İnsan təbiətinin öyrənilməsində L.D.Vinçi, Q.Qaliley, F.Bekon, R.Dekart, Hobbs, Spinoza, Leybnits, C.Lokkla yanaşı, Dante, Bokkaçço, Petrarka, Rable, Şekspir, Servantes və b. intibah alim və sənətkarlarının misilsiz xidmətləri olmuşdur. İntibah sənətkarları insanın təbii və ruhi aləmini, ictimai və mənəvi varlığını bir-birindən ayrı öyrənmir, insan hadisəsinə bütöv bir hadisə kimi baxırdılar.

Klassisizm və maarifçilik estetikası ağıl kultuna önəm verməklə, təbiətən ağlauyğun olanla buna zidd amillərin təsviri ilə; sentimentalizm ədəbi cərəyanının nümayəndələri özünə yad mənəvi mühitdə insanın iztirablarına diqqət çəkməklə, romantizm sənətkarları insan xarakteri və temperamentini mühit və cəmiyyətlə qarşıdurmada kəşf etməklə İnsanı anlamağın, dərk etməyin yolunu yaxınlaşdırdılar. Lakin sənət tarixində insan psixikasının həqiqətinə, "bəşərin komediyası"na (O.Balzak) XIX əsrin realist yazıçıları qədər heç bir yaradıcılıq cərəyanı yaxınlaşmamışdır.

Bu, həm də onunla bağlı idi ki, insan psixikasının öyrənilməsində elmi biliklər XIX əsrdə sistemləşmiş, psixologiya elminin yaranmasına səbəb olmuşdu. Eyni zamanda insan xarakteri və psixikasının öyrənilməsində psixologiya elmi də ən çox məhz O.Balzak, Ç.Dikkens, Stendal, Q.Flober, G.Mopassan, E.Zolya, L.Tolstoy, F.Dostoyevski, İ.S.Turgenev, A.P.Çexov və b. "yazıçı-psixoloqlar"ın bədii nailiyyətlərinə müraciət etmişdir. Artıq XIX əsrdə Qərbdə psixologizm insanın daxili dünyasının ən yüksək

zirvəsini fəth etmişdir. "Cəmiyyətdən doğan stress və kədər, burjua cəmiyyətinin özü ilə gətirdiyi əzablar insan mövcüdluğunu sarsıtdı. Bədii ədəbiyyatda qəhrəmanın ideyası daha dərin məna daşımağa başladı və qəhrəman daxilən zənginləşdi. Və psixologizm üslubu geniş vüsət aldı".[5]

Birinci fəslin ***"Ədəbiyyatda psixologizmin əsas nəzəri prinsip və kateqoriyaları"*** paraqrafında anlayışın nəzəri mənası şərh olunur, tarixən kəsb etdiyi yeni məzmun və mündəricə nəzərdən keçirilir. Belə ki, psixologizmin bədii üsul və ifadə forması kimi ədəbiyyatda mövqeyi iki əsrdir ki, möhkəmlənsə də, tədqiqatçılar problemin nəzəri dərkinin axıracan başa çatmadığını göstərirlər.

Rus ədəbiyyatşünasları psixologizm anlayışının aktuallaşmasını N.Çernışevskinin 1856-cı ildə çap etdirdiyi "Uşaqlıq" və "Yenietməlik". Qraf L.N.Tolstoyun müharibə hekayələri" adlı məqaləsindən hesab edirlər: "Qraf Tolstoyun istedadının xüsusiyyəti belədir ki, o yalnız psixi prosesin nəticələrini təsvirlə kifayətlənmir: onu prosesin özü... onun formaları, qanunları, qəlbin dialektikası maraqlandırır. Bunu müəyyən bir terminlə ifadə etmək lazım gəlir". N.V.Çernışevskinin özü də daxil olmaqla, XIX əsrin M.Y.Lermontov, İ.S.Turgenev, L.N.Tolstoy, F.M.Dostoyevski, Saltıkov-Şedrin və b. yazıçılarının əsərlərinin psixologizm problemi işığında öyrənilməsinə başlanılır. Sonrakı mərhələdə "psixologizm" anlayışını inqilabi-demokratik tənqiddən mənimsəyərək, mədəni-tarixi məktəbin A.Potebnya, D.N.Ovsyaniko-Kulikovski kimi psixoloji istiqamətini təmsil edən ədəbiyyatşünaslar inkişaf etdirdilər.

Psixologizmin nəzəri öyrənilməsində növbəti mərhələ XX əsrin əvvəllərində sənət əsərinin psixoloji əsaslarına nüfuz etməklə şərtlənir. L.S.Vıqotskinin (1896-1934) "İncəsənətin psixologiyası" adlı əsəri bu sahədə yalnız psixologiya elminin nailiyyəti sayılmır. Vıqotski bir sıra əsərlərə, novellalara və Şekspir yaradıcılığına dair konkret təhlilləri ilə ədəbiyyatşünaslığın bu istiqamətdə inkişafına təkan vermişdir[6].

---

[5] Бочаров, С.Г. Характеры и обстоятельства. Теория литературы: Основание проблемы в историческом освещениив: [в 3 томах] / С.Г. Бочаров. – Москва: Наука, – т. 1. – 1962. – с.64.

[6] Выготский, Л.С. Психология искусства / Л.Выготский. – Москва: Искусство, – 1986. – 573 с.

Z.Freydin psixoanaliz nəzəriyyəsinin, K.Q.Yunqun arxetiplər nəzəriyyəsinin, E.Frommun, J.P.Sartrın ekzistensialist fəlsəfəsinin, ümumən XX əsr modernizm sənət və fəlsəfi cərəyanlarının insan fərdinə dərindən yanaşması psixologizm anlayışının sərhədlərini genişləndirdi. İspan filosofunun uzaqgörənliyi, doğrudan da, XX əsr ədəbiyyatında təsdiqini tapmışdır. XX əsr ədəbiyyatı insanın psixoloji tədqiq və təsvirində yeni-yeni qatlara – ekzistensial, mifik, arxetipik, absurd, o cümlədən mənəvi-əxlaqi dərinliklərə nüfuz edə bildi.

Sovet dövründə kollektivizm ideyalarının hakim mövqeyi ədəbiyyatda psixologizmin araşdırılması məsələlərini ləngitsə də, problemin nəzəri dərkində 1960-1970-ci illər xüsusi intensivliyi ilə seçilir. Psixologizmin öyrənilməsinin məhz müasir mərhələsi anlayışa dürüstlük gətirmiş, psixologizmin növləri və kateqoriyalarını müəyyən etmişdir. Ədəbiyyatşünaslar psixologizm anlayışına bir-birinə yaxın olan təriflər vermişlər. Yesinə görə: "Psixologizm – ədəbi şəxsiyyətin (personajın) hissləri, fikirləri və yaşamlarının kifayət qədər dolğun, təfərrüatlı və dərin təsviridir"[7]. L.Ginzburq psixologizmi "Mənəvi həyatın təzad və dərinliklərinin bədii tədqiqi" kimi səciyyələndirir.[8] A.İezuitov isə hesab edir ki, "Bədii inikasın və yaradıcılığın əsas və birbaşa obyekti özlüyündə dəyər olan insan psixologiyasıdır, psixologizm isə onun təcəssümü və açılmasının məxsusi və məqsədyönlü üsul və formalarının (psixoloji təhlilin) işlənməsidir".[9] İ.V.Straxova görə, daxili aləmin ifadəsini verən konkret təsvir formaları ikidir: Psixoloji təhlilin əsas formalarını xarakterlərin "daxildən" təsvirinə və "xaricdən" analizinə ayırmaq olar.[10] Straxovun "daxildən" və "xaricdən" psixoloji təsvir təsnifatına Yesin daha birini artırır: "məcmu psixoloji təsvir" forması. Bu forma obrazın daxili yaşantılarını birbaşa göstərmir, bu barədə danışır, təhkiyə edir.

---

[7] Есин, А.Б. Психологизм русской классической литературы / А.Б.Есин. – Москва: Просвещение, – 1988. – с. 18.

[8] Гинзбург, Л.Я. О психологической прозе / Л.Я.Гинзбург. – Ленинград: Художественная литература, – 1977. – с. 286.

[9] Иезуитов, А. Проблемы психологизма в литературе / А.Иезуитов // Проблемы психологизма в советской литературе. – Ленинград: Лен. отдел; Наука, – 1970. – с. 39-40.

[10] Страхов, И.В. Психологический анализ в литературном творчестве / И.Страхов. – Саратов: Изд-во Саратовского ун-та, – 1975. – с.76-115.

*Birinci fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.*[11]

Dissertasiyanın ikinci fəsli **"A.P.Çexov psixologizminin dünya ədəbiyyatı kontekstində yeri"** adlanır və Çexov psixologizmi dünya ədəbiyyatının nailiyyəti kimi bir neçə aspektdə öyrənilir. A.P.Çexovun (1860-1904) dünya ədəbiyyatı tarixində özünəxas bədii nəsri və böyük təsir gücünə malik dramaturgiyası, son dərəcə orijinal, təkrarsız yazıçı üslubu ilə seçilməsi, ədibə hələ sağlığında böyük şöhrət qazandırmış, adı rus ədəbiyyatının A.S.Puşkin, F.Dostoyevski, L.Tolstoy kimi dahi simaları ilə yanaşı səslənmişdir. Yüz ildən də artıq bir müddətdə A.P.Çexov haqqında tədqiqatlarda aparıcı mövzunu – yazıçının yaradıcılıq metodu, təkrarsız Çexov realizmi və onun tərkib hissəsi olan psixologizm təşkil edir. Çexovu realist adlandırdıqları kimi, simvolist, impressionist, dekadent kimi təqdim etmək cəhdləri də faktdır. Azərbaycan ədəbiyyatşünası, Çexov yaradıcılığının tədqiqatçılarından biri olan Rəhilə Quliyeva bu mövzuya "A.P.Çexovun realizmi və impressionizm məsələsi" adlı ayrıca monoqrafiya həsr etmişdir[12].

Dissertasiyada mövzunun rus ədəbi tənqidi və ədəbiyyatşünaslığında geniş panoramına əsaslanılaraq, belə bir mühüm amilə diqqət edilmişdir ki, Çexov realizminin orijinal, dərin novator xarakteri XIX əsrin ikinci yarısındakı ədəbiyyatın və incəsənətin inkişafının ümumi problemləri ilə əlaqəli meydana çıxmışdır. Çexov realizminin özünəxaslığı bütün XIX əsrdə rus ədəbiyyatının realizm təcrübəsini özündə ehtiva etdiyi kimi, yarandığı dövrün Qərb modern sənəti və ədəbiyyatının xüsusiyyətləri ilə də şərtlənir və səsləşir.

İkinci fəslin ***"Qərb ədəbiyyatında psixologizm və A.P.Çexov"*** adlanan paraqrafda Çexov və Qərb ədəbiyyatı klassiklərinin yaradıcılığı müqayisəli araşdırmada şərh olunur. Qərb realist ədəbiyyatında Stendal, Balzak, Dikkens, Mopassan, Zolya və b.-nın psixologizminin rus ədəbiyyatında M.Lermontov, İ.Turgenev,

---

[11] İddiaçının avtoreferatın sonunda təqdim olunmuş əsərlərinin siyahısında: № 2; 7; 10; 13; 18; 22.

[12] Кулиева, Р.Г. Реализм А.П.Чехова и проблема импрессионизма / Р.Кулиева. – Баку: Элм, – 1988. – 188 с.

F.Dostoyevski, L.Tolstoy, A.Çexov və b. yazıçılarla qarşılıqlı nəzərdən keçirilməsi bu təsirlərin mövcud olduğunu üzə çıxarmışdır.

A.P.Çexov yaradıcılığının Qərb ədəbiyyatı ilə tipoloji müqayisəsində tədqiqatçıların ən çox müraciət etdiyi Gi de Mopassandır (1850-1993). Hər iki yazıçının yaradıcılığı əsasən hekayəçilik istiqamətində, rus və fransız ədəbiyyatlarında realizmin son mərhələsi kimi müqayisə olunmuş, ideya-sosial aspektləri, bədii qəhrəman, "kiçik adamlar" və s. problemlər ətrafında tədqiqata cəlb edilmişdir[13]. Bununla belə, Çexov psixologizminin yazıçının müasiri olduğu Emil Zolya, Qonkur qardaşları, Marsel Prustun (1871-1922) yaradıcılığında psixologizmin müxtəlif təzahür xüsusiyyətləri ilə tipoloji müqayisələri də aparılmışdır.

E.Zolya və A.P.Çexovu başlıca olaraq, insan ziddiyyətlərini son həddə çatdıran kapital və burjua dünyasının bədii tədqiqi, insan psixologiyasının yeni qatlarına enmək bacarığı və insana yeni yanaşma tələb edən ictimai zaman birləşdirirdi. Bu baxımdan ictimai zamanın Çexov psixologizmi ilə doğmalaşdırdığı impressionizm bədii cərəyanı daha xarakterikdir. Fransız ədəbiyyatında Qonkur qardaşlarının əsasını qoyduğu "klinik yazı" metodu "elmi müşahidə"yə əsaslanırdı. Qəhrəmanların zahiri hərəkətlərinə təsir edən daxili aləmin əsasən utancverici tərəflərinin "elmi müşahidə" yolu ilə göstərilməsi epoxanın məhsulu, əsrin bəlası olan "nevroz"ların üzə çıxarılmasını şərtləndirirdi. A.P.Çexovun psixologizmi insan mahiyyətini yalnız fizioloji mövcudluqla, nervozların varlığı ilə bağlamasa da, bu cəhətlərə də həssasdır. İxtisasca həkim olan yazıçı insanın cismani və mənəvi ağrılarının sərhədlərini gözəl bildiyi kimi, əsərlərində sosial və psixoloji nisbətlərini də dürüst təsvir edir.

Çexov psixologizminin modernist ədəbiyyatla tipoloji uyğunluqları M.Prust nəsri ilə müqayisələrdə aşkarlanır. Bu məqama ilk dəfə XX əsr rus yazıçısı V.Nabokov diqqət çəkir. Yazıçının "Rus və xarici ədəbiyyat haqqında mühazirələr"ində M.Prust, L.Tolstoy və

---

[13] Соколовская, Ж.В., А.П. Чехов и Ги де Мопассан: национальное своеобразие малой прозы: [Электронный ресурс] / 2005. URL: http://www.dissercat.com/content/ap-chekhov-i-gi-de-mopassan-natsionalnoe-svoeobrazie-maloi-prozy#ixzz43YepQzwy

A.P.Çexov nəsri "çoxqatlılıq" məcazı prizmasından bir araya gəlir. Prustun "insan qəlbinin təsvirəgəlməz duyumları" barədə dedikləri Tolstoyda "gözəllikdən ağrı duymaq" şəklində ifadə olunub və Nabokova görə: "Çexov çox yazıçıların bacarmadığı şəkildə həmin gözəllik duyumunu verə bilir".

İkinci fəslin ***"Rus ədəbiyyatında psixologizmin yaranması və inkişafı"*** adlanan paraqrafında psixologizmin rus ədəbiyyatında Çexova qədərki mərhələləri, habelə Çexov yaradıcılığına təsiri izlənilir. "Belinskinin Puşkin haqqında sözlərini misal gətirərək, demək olar ki, Puşkinsiz, Lermontovsuz, Qoqolsuz, Saltıkov-Şedrinsiz, Turgenevsiz və Tolstoysuz Çexov da olmazdı. Belə ki, varis və tələbə kimi rus ədəbiyyatının ustad sənətkarlarının birbaşa davamçısı olaraq Çexov öz novator fəaliyyəti ilə həmin irsi daha da artırmış, rus və dünya ədəbiyyatını zənginləşdirmişdir[14].

Rus ədəbiyyatında psixoloji nəsrin inkişafı başlıca olaraq "darıxan insanlar"ın təsvirindən, konkret olaraq M.Y.Lermontovun (1814-1841) "Zəmanəmizin qəhrəmanı" əsərindən təkanlanmışdır. Əsərin qəhrəmanı Peçorinin daxili dünyasının parçalanması yazıçı tərəfindən insanın görünməyən tərəflərinin kəşfi və təsvirinə yol açmışdı. M.Lermontov nəsrinin Çexov psixologizminə qədərki yolunun "tənhalıq" motivindən, "darıxan insan"lardan keçib gəldiyini tədqiqatçılar araşdırmışlar. Bunu yazıçının "Yolda" hekayəsinin qəhrəmanları da yaşayırlar. Hekayəyə Çexov Lermontov misralarını epiqraf vermişdir.

Rus ədəbiyyatında psixologizmin növbəti inkişaf mərhələsi İ.S.Turgenevin (1818-1883) adı ilə bağlıdır. Çexovun məşhur qəhrəmanı Astrovu "Atalar və oğullar"ın qəhrəmanı Bazarov ilə müqayisə edənlər bir qayda olaraq onu Turgenevin "artıq adamlar"ının yeni bir təzahürü kimi qiymətləndirmişlər. Amma Astrovu müsbət obraz kimi alıb, hətta Çexovun özündə Bazarov çizgilərini müşahidə edən müasirləri də olmuşdur. Ümumən, İ.Turgenev realizminin Çexov yaradıcılığına təsiri rus ədəbiyyatşünaslığında daim diqqət mərkəzində olmuşdur. Turgenevin "Görüş" və Çexovun "Yeqer" hekayələri, Turgenevin məşhur "Ovçunun xatirələri" və Çexovun "Aqafya",

---

[14] Громов Л.П. Чехов и Гоголь: [Электронный ресурс] / URL: http://apchekhov.ru/books/item/f00/s00/z0000021/st018.shtml 07.08.2021

“Yeqer”, “Bədiiyyat” hekayələri arasında paralellər aparılmış, ayrıca “Turgenev və Çexov” tədqiqatında Çexov üslubunun formalaşmasında Turgenevin yeri tədqiq olunmuşdur.

Nəhəng yaradıcılığa malik, onlarla şedevrlər müəllifi Lev Tolstoy (1828-1910) eyni zamanda dünya ədəbiyyatını mükəmməl psixoloji təhlil üsulu ilə zənginləşdirmişdir. Rus ədəbiyyatşünaslığında Çexov və Tolstoy məsələsi ətraflı araşdırılmış, hər iki yazıçının münasibətləri və bir-birini dəyərləndirməsi öyrənilmiş, ayrı-ayrı əsərlərinin müqayisəsi aparılmış, Çexovun müəyyən hekayə və povestlərində Tolstoy rəngləri qeydə alınmışdır. Müəyyən olunmuşdur ki, Çexov Tolstoydan xarakter yaradıcılığını, psixoloji təhlil ustalığını, qəhrəmanların qəlb aləminə nüfuz etməyi əxz etmişdir. Çexov Tolstoydan öyrənməyi nəinki məqbul saymış, bəzi bədii üsullardan eynən istifadə etməkdən də çəkinməmişdir. “L.N.Tolstoy və A.P.Çexov yaradıcılığında psixologizm” adlı tədqiqatda deyilir: “Zəngin rus klassikası bütünlüklə iki böyük cərəyandan ibarətdir – qəhrəmanların psixologizminin dünyaya və digər insanlara münasibəti üzərində qurulan və öz şəxsi daxili aləminin, qəlbinin təhlilinə yönəlmiş psixologizm üzərində olan əsərlər. Birinci istiqaməti, əlbəttə, ən parlaq Lev Nikolayeviç Tolstoy dühası təcəssüm etdirir. İkincini isə heç də az önəmli olmayan Anton Pavloviç Çexov dühası.”[15]

Rus və dünya ədəbiyyatında psixologizmin daha bir zirvəsi F.Dostoyevskinin yaradıcılığı hesab olunur. Böyük rus ədəbiyyatşünası M.Baxtin “Dostoyevski poetikasının problemləri”[16] adlı geniş tədqiqatında sübut etmişdir ki, F.Dostoyevski dünya ədəbiyyatını dialoji prinsiplərə əsaslanan yeni roman tipi ilə zənginləşdirmişdir. Rus ədəbiyyatında Çexov – Dostoyevski münasibətləri digər sələflərinə nisbətdə daha mürəkkəb hesab olunur. A.P.Çexov Dostoyevski yaradıcılığını birmənalı olaraq qəbul etməmiş, onunla yaradıcılıq polemikasında olmuşdur. O cümlədən

---

[15] Психологизм в творчестве Л.Н. Толстого и А.П. Чехова: [Электронный ресурс] / URL: https://zinref.ru/000_uchebniki/02800_literatur/005_lekcii_literat_03/148.htm11.09.2021

[16] Бахтин, М.М. Проблемы поэтики Достоевского / М.Бахтин. – Москва: Советская Россия, – 1979, – 320 с.

Çexov psixologizmi ilə Dostoyevski psixologizmi arasında da birbaşa deyil, polemik əlaqələr mövcuddur. "Həqiqət isə belədir ki, gənc ikən Çexov rus romanının korifeylərinin güclü təsirini duymuş, yaradıcılığının yetkin çağında isə prinsipial və qəti olaraq Tolstoyun da, Dostoyevskinin də təsirindən təkamül etmiş, amma həm də təhkiyənin iri formalarını onlardan öyrənməkdə davam etmişdir".

Çexov tədqiqatçıları yazıçının yaradıcılığının ilk dövründə N.V.Qoqol, Saltıkov-Şedrin kimi, F.Dostoyevski qəhrəmanlarını da parodiya etdiyini, fərqli yanaşma ortaya qoyduğunu üzə çıxarmışlar. Çexov yaradıcılığında Qoqol ənənələrindən, satirik-Çexovun Saltıkov-Şedrin ənənələrindən, rus liberalizminin, satqın burjua ziyalılarının ifşasında necə bəhrələndiyindən tədqiqatlar mövcuddur[17]. Rus ədəbiyyatında satira psixologizminin formalaşması məhz bu ənənələrlə bağlıdır. A.P.Çexovun "Məmurun ölümü" hekayəsində Qoqolun məşhur "Şinel"inin izləri aşkar görünür. Rus ədəbiyyatında xırda məmurun aqibəti Akakiy Akakiyeviç Başmaçkindən başlayıb, Dostoyevskinin Makar Devuşkinindən ("Bədbəxt adamlar") keçib, Çervyakovda aqibətinə çatır.

İkinci fəslin ***"A.P.Çexov psixologizminin əsas prinsipləri"*** paraqrafında Çexov nəsrinin zəngin materialları nümunəsində psixologizmin yazıçının yaradıcılığında kəsb etdiyi ideya-bədii xüsusiyyətlər araşdırılır. A.P.Çexov tədqiqatçıları yazıçının yaradıcılıq poetikasında psixologizmin mühüm rol oynadığına, yazıçının üslubunun ayrılmaz komponenti olmasına diqqət yetirmişlər. Çexov yaradıcılığı klassik rus ədəbiyyatında psixologizm ənənələrinin yüksək təcəssümü olmaqla yanaşı, son dərəcə yenilikçi mahiyyətilə də seçilir.

İlkin yaradıcılığında yazıçı insan – cəmiyyət əlaqələrini konkret əhvalat və süjetlərdə açmağa üstünlük verir. "Məmurun ölümü" (1883), "Cərrahlıq" (1884), "Maska" (1884), "At familiyası" (1885), "Kiçik zabit Prişibeyev" (1885) və s. hekayələrində yazıçı yalnız orta və aşağı təbəqənin vəziyyətini təsvir etmək məqsədi güdmür, insan daxilindən boy verən həqiqət A.P.Çexov qələmi vasitəsi ilə ustalıqla böyüyür. Onun ironiyası bütovlükdə cəmiyyətə qarşı yönəlmişdir. O,

[17] Семанова, М. Тургенев и Чехов // – Ленинград: Ученые записки (Пед.ин-т им. Герцена), – 1957. №134, – с. 177-223.

obrazlarla oxucu arasında əlaqəni insan psixologiyasının bədii portretlərini yaratmaqla əldə edir. “Buqələmun“ hekayəsində cəmiyyətin yaratdığı yaltaqlıq sindromunun insan psixikasında çevrilmələri, parodik təcəssümü verilmişdir. Yazıçı hekayədə cəmiyyətdəki yüksək rütbəyə pərəstişin insan xarakterini əzməsini, şəxsiyyəti məhv etməsini əyaniliklə göstərir. Komik vəziyyətə düşən Oçumelov da, əslində, kiçik zabit Prişibeyev kimi, faciəvi obrazdır. Rütbə, vəzifə, pul önündə yaltaqlığın yazılmamış qaydaya çevrildiyi cəmiyyətin qurbanıdır.

Cəmiyyətdə hər kəsin öz sosial mundiri var və yazıçı həmin mundirin altındakı insanın daxili dünyasına baş vurur. L.Ginzburq qeyd edir ki, “Çexov böyük rus həyatını hissə-hissə öyrənməklə bədii mikrososiologiyasını hazırlayırdı. Bununla belə, Çexovun qəhrəmanları öz sosial funksiyalarından ayrılırdılar...”[18] Bu və ya digər zümrə insanlarının öz sosial statusu və peşəsi ilə uyğun gəlməməsi, özgələşməsi xüsusən Çexovun 1890-cı illər yetkin yaradıcılığında təcəssüm olunmuşdur. Konkret əhvalat və epizodlar üzərində deyil, qəhrəmanların həyat tarixçəsi, hekayəti üzərində qurulan “Qara rahib” (1891), “Hərdəmxəyal” (1892), “Ədəbiyyat müəllimi” (1894), “İonıç” (1898), “Qılaflı adam” (1898) və s. hekayələrində insan – cəmiyyət münasibətlərinin daha dərin incəlikləri təsvir predmetidir. Magistr Andrey Vasilyeviç Kovrin də (“Qara rahib”), müəllim Nikitin də (“Ədəbiyyat müəllimi”), həkim Dmitri İonıç Startsev də (“İonıç”) seçdikləri həyatdan darıxan, taledən narazı düşən, xəyal sərbəstliyini gerçəklərə dəyişən faciəvi, dramatik, hardasa komik ömür daşıyıcılarıdır.

Çexovun yaradıcılığı XIX əsrin sonu rus həyatının güzgüsü idi. İnsan azadlığına qənim kəsilmiş təqib mühitinin anatomiyası “6 nömrəli palata” əsərində (1892) daha təfərrüatlı təcəssüm olunmuşdur. Hekayə A.P.Çexovun öz mühitinə oxuduğu bir ittiham idi: sosial mühit insan ağlına, düşüncəsinə, sərbəstlik və azadlığına qənim kəsilmişdi. Bu məqamda həmçinin Çexov psixologizmi sosiallığın bədii tədqiqində sələflərindən ayrılır, daha bir pillə irəli gedir. Əgər Çexova qədərki realistlər bu və ya digər təbəqəyə xas

[18] Гинзбург Л.Я. О литературном герое / Л.Я.Гинзбург. – Ленинград: Советский писатель, – 1979, – с. 74

zümrəvi insanı kəşf və təhlil edirsə, Çexov əsas diqqətini bu və ya digər sosial zümrə arxasındakı insana, insan həqiqətinə yönəldir. A.P.Çexov polemik olaraq, insanı böyük ideyalar işığına tutmaq yolu ilə getmir, ideyanı adi insanların özündə, həyatında, daxili dünyasında axtarır. Zümrəvi insanın dərdini, həqiqətini ədəbiyyata gətirməklə real həyatın obrazını yaradır.

"Qüssə" (1886), "İfritə" (1886), "Zarafat" (1886), "Bədbəxtlik" (1886), "Xoşbəxtlik" (1887) hekayələrindən başlayaraq, insan haqqında sosial həqiqətlərdən insanın içindəki həqiqətlərə yönələn əsərlərində ədəbi tənqid Çexov yaradıcılığına simvolizm, dekadentçilik, impressionizm təsirlərindən və yaxud da birbaşa impressionizmdən söz açmışdır. Çexovun impressionizmə, yaxud impressionist yaradıcılıq palitrasına aid edilməsi onun psixologizminə xələl gətirmir, əksinə, yaradıcılıq metodunu daha da zənginləşdirir. "Hərdəmxəyal", "Ədəbiyyat müəllimi", "Rotşildin skripkası", "Qara rahib", "İonıç", "Firəng üzümü" hekayələri qəhrəmanların həyatını, zamanla dəyişən əhval-ruhiyyəsini yalnız cəmiyyət hadisələri içrə izləməklə qalmır, rus xarakteri və təbiətinin sıx bağlı olduğu meşə, çöl, bağ-bağat, sərt qış, oyanan bahar, yay günəşinin nəfəsi, payız xəzəli içrə dərk və təqdim edir.

Çexovun psixologizmində dinamika duyulur, hislər hadisələrlə birgə daimi hərəkətdədir. Odur ki, insan kədəri, ya sevincini ifadə etməsindən asılı olmayaraq, əsərlərində həyatın aşıladığı daimi ruh mövcuddur. Çexovun nəsrində oxucu insan xarakterinə yad, süni olan heç nə ilə qarşılaşmır. İnsan hər gün etdikləri hər hansı bir hərəkətin və ya hadisənin izini, əlamətini, səbəbini Çexovun yaradıcılığında tapa bilir. "Mujiklər", "Uduşlu bilet", "İonıç" hekayələrində yazıçı insan psixologiyasına uyğun olaraq hadisələri cərəyan etdirir. Oxucu ətrafdakı əşyaları, mənzərəni öz şüuru və hissləri çərçivəsində duyur, izləyir. Çexov nəinki əsl psixoloq kimi psixologiyanın dərin qatlarına enirdi, o, uşaq psixologiyasının incəliklərinə də çox həssaslıqla yanaşa bilmişdir. "Hadisə", "Vanka", "Yuxum gəlir" kimi helkayələrində o, uşaq qəlbinin sızıltılarını faciəvi situasiyalarda üzə çıxarmışdır.

Çexov psixologizminin ifadə vasitələrindən biri də gülüşdür. İlk hekayələrində yumorun qabarıq olduğu A.P.Çexovun

yaradıcılığına gülüşün bütün növləri xasdır. Çexov hekayələrində gülüş psixologizmlə paralel dayanırdı. Onun əsərlərində duyulan xəfiflik, axıcılıq məhz yumor sayəsində qurulurdu. “Adaxlı”, “Kontrabasla sevgi macərası” və s. hekayələrində A.P.Çexov çox vaxt insanın düşüncəsi ilə etdikləri arasında fərqi yumor vasitəsi ilə oxucuya çatdırır, onu güldürərək düşündürür**.** İlk hekayələrindən fərqli olaraq Çexov yaradıcılığının yetkin dövrünə daha çox satira və ironiya xasdır. Çexovun satirik psixologizmi dərin mətləblərdən xəbər verirdi. Onun satirası düşündürən satira idi.

Çexov həyatın bütün zənginliyini və mürəkkəbliyini təsvir etməyi bacarmışdır. Təsadüfi deyil ki, onun yetkin dövr hekayələri heç bir qəlibə sığmayaraq, sanki həyatın özünün ritminə köklənmiş, məna və fəlsəfəsini verməyə çalışmışdır. “Dilənçi”, “Mərc”, “İt gəzdirən xanım”, “Qadası” və s. kimi geniş zaman və məkan sərhədlərini ehtiva edən, insan həqiqətinin və həyatın analitik mündəricəsinə nüfuz edən hekayələr bunu təsdiq edir. A.P.Çexov özünəxas, təkrarsız yaradıcılıq nümunələri ilə dünya ədəbiyyatında şəksiz iz buraxmış yazıçıdır. Onun yaradıcılığı istər ideya, istərsə də forma baxımından XIX əsr ədəbiyyatında psixologizmin ən ali zirvələrini təmsil edir.

*İkinci fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.*[19]

Dissertasiyanın **“Cəlil Məmmədquluzadə psixologizmi”** adlanan üçüncü fəslində yazıçının yaradıcılığında psixologizm tipoloji müqayisələrdə araşdırılır. Azərbaycan ədəbiyyatında insan xarakterlərinin, psixologiya və əxlaqının bədii təsviri qədim eposda, “Kitabi-Dədə Qorqud”da[20], Nizami Gəncəvi yaradıcılığında[21], Məhəmməd Füzuli və orta əsrlər şeirində, habelə folklorda axtarılmışdır. C.Məmmədquluzadə yaradıcılığının folklorla dərin əlaqələri həmin məqamlara diqqət yetirməyi zəruri edir.

---

[19] İddiaçının avtoreferatın sonunda təqdim olunmuş əsərlərinin siyahısında: №1; 3; 6; 8; 9; 11; 12; 14; 16; 17; 19; 21.

[20] Nağıyev, C.Q. “Kitabi-Dədə Qorqud”da psixologizm // – Bakı: Azərbaycan SSR Ali və Orta İxtisas Təhsil Nazirliyinin Elmi əsərləri, Dil və Ədəbiyyat seriyası, – 1976. №4, – s. 53-59.

[21] Əlimirzəyev, X.X. Nizami Gəncəvinin insan konsepsiyası / X.Əlimirzəyev. – Bakı: Gənclik, – 2001. – 354 s.

C.Məmmədquqluzadə nəsrində psixologizmin təzahürü şifahi xalq ədəbiyyatının bir çox janrlarından (atalar sözləri, məsəllər, nağıl, bayatı, qoşma və s.) bəhrələnməklə yanaşı, başlıca olaraq Molla Nəsrəddin lətifələri ilə bağlıdır. "Molla Nəsrəddin" təxəllüsünü götürən yazıçı həm təsis etdiyi "Molla Nəsrəddin" jurnalındakı felyetonlarında xalq gülüşü ənənələrini realist nəsrə gətirmiş, həm də hekayələrində yeni əsrin Molla Nəsrəddin obrazını yaratmışdır.

Üçüncü fəslin ***"Klassik Azərbaycan nəsrində psixologizmin yaranma tarixi"*** adlı paraqrafda C.Məmmədquluzadə psixologizminin formalaşmasında milli nəsr ənənələrinin rolu araşdırılmışdır. Böyük maarifçi M.F.Axundzadə (1812-1878) "Təmsilat"ında, "Aldanmış kəvakib" povestində, "Kəmalüddövlə məktubları"nda, Şərq geriliyinə, orta əsrlər cəhalətinə, dini fanatizmə qarşı elm və qabaqcıl düşüncəyə yiyələnməyi, Qərbdə mövcud olan tərəqqi ideyalarını qoyurdu. M.F.Axundzadənin realist əsərləri başlıca olaraq maarifçilik problemlərini irəli sürsə də, burada həmçinin milli xarakter və psixologiyaların, cəmiyyət və kütlə psixologiyasının canlı təsviri verilmişdir. Personajların öz danışığı, öz dilləri ilə xarakterlərinin açılması üsulu (satirik psixologizm) M.F.Axundzadədən sonra realist ədəbiyyatda geniş işlənmiş, C.Məmmədquluzadə də, M.Ə.Sabir də, Ə.Haqverdiyev də həmin bədii priyomdan ustalıqla bəhrələnmişlər.

Rus ədəbiyyatının Azərbaycan realizminə geniş təsiri XIX əsrin ikinci yarısından hesablanır. O cümlədən L.Tolstoy və A.P.Çexov kimi "yazıçı psixoloq"ların milli nəsrdə psixologizmin formalaşmasında mühüm rolu da bu zamanla şərtlənir. Rus realizminin Azərbaycan realizminə ümumən təsirilə yanaşı, habelə bilavasitə paralellərdən: N.Vəzirov və Ə.Haqverdiyev dramaturgiyasında Qoqoldan və A.N.Ostrovskidən, Ə.Haqverdiyevin "Bəxtsiz cavan"ında Qriboyedovun "Ağıldan bəlası"ndan, C.Məmmədquluzadə yaradıcılığında Qoqoldan, Qriboyedovdan, Saltıkov-Şedrindən, Tolstoy, Çexovdan, Y.V.Çəmənzəminli nəsrində Çexovdan yaradıcı bəhrələnmənin izlərindən bəhs olunur[22]. "Çexovun dili" adlandırdığı

[22] Qurbanov, Ş. Əsərləri: [3 cilddə] / Ş.Qurbanov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – c.II. – 1970, s. 401, s.403; s. 445; Qurbanov, Ş.D. Klassik rus poeziyası Azərbaycanda / Ş.Qurbanov. – Bakı: Yazıçı, – 1985. – s. 199;

məqalədə Yusif Vəzir rus klassikinin sənətini dərindən mənimsədiyini nümayiş etdirir. Məqalədə söhbət yazıçının sənət üslubundan, sənətkarlıq xüsusiyyətlərindən gedirdi: "Çexov hər bir qəhrəmanını öz dilində, öz səviyyəsinə görə danışdırır"[23]. Beləliklə, klassik Azərbaycan nəsrində psixologizmin yaranması tarixən uzun bir təşəkkül yolu keçsə də, sistemli təzahürü bilavasitə realistlərin adı ilə bağlıdır. C.Məmmədquluzadə psixologizminin özünəxas bir hadisə kimi meydana çıxması bunu bir daha təsdiqləyir.

Üçüncü fəslin ***"C.Məmmədquluzadə psixologizminin qarşılıqlı əlaqələri"*** paraqrafında Cəlil Məmmədquluzadə yaradıcılığında psixologizmin təşəkkülü nəzərdən keçirilir. Tədqiqatçılar C.Məmmədquluzadə qələmində özünü çox erkən büruzə verən realist metodun formalaşmasında dünya ədəbiyyatının, o cümlədən rus realizminin roluna diqqət çəkmişlər. Böyük istedadı sayəsində M.F.Axundzadə yolunun ardıcıl davamçısı olan Mirzə Cəlil yeni mərhələdə Azərbaycan ədəbiyyatı qarşısında duran vəzifələri düzgün təyin etmiş, dünya ədəbiyyatının böyük nailiyyətlərindən olan realizmdən bəhrələnərək, təkrarsız nümunələrini yaratmışdır.

C.Məmmədquluzadənin rus ədəbiyyatı ilə əlaqələri barədə tədqiqatçılar müxtəlif dövrlərdə müxtəlif fikirlər səsləndirmiş, Mirzə Cəlil realizmi rus ədəbiyyatının böyük klassiklərinin yaradıcılığı ilə müqayisə olunmuşdur. Mir Cəlal yazırdı: "Mirzə Cəlil böyük rus ədəbiyyatının zəngin təcrübəsinə, Qoqol, Tolstoy, Çexov kimi nəhəng nümayəndələrinə əsaslanaraq realist hekayə janrının yüksək nümunələrini yaratmışdır".[24]

C.Məmmədquluzadə realizmi ilə tipoloji müqayisəyə gələn ən çox Çexov realizmidir. Müəyyən şərtiliklə hər iki yazıçını bir-birinin müasiri hesab etmək olar. A.P.Çexov (1860-1904) və Cəlil Məmmədquluzadə (1869-1932) təxminən eyni zamanədə – XIX əsrin sonları, XX əsrin əvvəllərində yaşayıb-yaratmış, Rusiyada baş verən eyni ictimai-siyasi proseslərin şahidi olmuşlar. A.P.Çexovun rus

---

İmaməliyeva, L.M. Rus və Azərbaycan ədəbiyytlarında hekayə janrı: (XIX əsrin sonu – XX əsrin əvvəlləri) / L.İmaməliyeva. – Bakı: Mütərcim, – 2015, – s.169.

[23] Çəmənzəminli, Y.V. Çexovun dili // Ədəbiyyat qəzeti. – 1935, 12 fevral. – s. 3

[24] Mir Cəlal. Cəlil Məmmədquluzadə realizmi haqqında / Mir Cəlal. – Bakı, – 1966. – 69 s.

kəndlisinin dözülməz həyatından bəhs edən "Mujiklər" (1896) və C.Məmmədquluzadənin Azərbaycan kəndində zülm və haqsızlıqdan söz açan "Danabaş kəndinin əhvalatları" (1894) əsərləri eyni bir rejimin əyalətlərdə doğurduğu ictimai-siyasi mənzərələri əks etdirir. A.P.Çexov kimi C.Məmmədquluzadə də kəndlinin zülmə boyun əyməsinin bir səbəbini də onun özündə, dini fanatizmə uymasında, "tale" fəlsəfəsinə baş əyməsində görür. Yaşar Qarayev yazır: "Eşşəyin itməsi" – əslində zahiri süjetdir: daxili, psixoloji, tragik süjet – Məhəmmədhəsən əmilərin varlığında fəal "ictimai" insanın, şəxsiyyətin, vətəndaşın itməsi süjetidir! Məhz belə bir süjet bu əsəri milli Azərbaycan kəndinin ilk realist ictimai romanı səviyyəsinə qaldırır".[25]

C.Məmmədquluzadə və A.P.Çexov ədəbiyyat tarixi baxımından da eyni tipoloji mərhələnin sənətkarları hesab oluna bilərlər. Hər iki sənətkar milli realizmin yetkin mərhələsini təmsil edirlər. Müəyyən fərqlər burasındadır ki, rus tənqidi realizmi daha əvvəl yaranmışdır. Y.Qarayev "Realizm: sənət və həqiqət" monoqrafiyasında tənqidi realizmin sərhədlərini belə müəyyənləşdirir: "Gerçəklik üzərindən pərdəni amansızcasına götürən" "Ölü canlar"dan (Qoqol) tutmuş ta "bütün və hər cür maskaları yırtan" L.Toltsoya qədər böyük rus realizmi, əsasən, bu istiqamətdə davam etmişdir. Həmçinin "Molla Nəsrəddin"çi realizmin həyatı tədqiq və təşrih üsulunun "mexanizminə", özünəxas dolayı bir formada, Molla Nəsrəddin özü belə xasiyyətnamə vermişdir: "Ax, Molla Nəsrəddin, lal ol, çox işlərə əl aparma! Çox sirləri açma, pərdələri qovzama, çox çirkləri qurtdalama ki, üfunəti dünya və aləmə yayılsın!"[26] A.P.Çexovun hekayələri və əsasən də ilkin dövr yaradıcılığı da, "Molla Nəsrəddin"lə birgə C.Məmmədquluzadənin hekayələri də həmin missiyanı yerinə yetirir: gerçəklərin üzündən pərdəni qaldırır, ictimai-siyasi həyatı, milli cəmiyyəti və milli insanı mənəvi-psixoloji dolğunluğu ilə hərtərəfli göstərir, təhlil edir. Mirzə Cəlil və Çexov hekayəçiliyi ən çox bu əsasda, "kiçik adam" problemi ətrafında nəzərdən keçirilmişdir.

[25] Qarayev, Y. Realizm: sənət və həqiqət / Y.Qarayev. – Bakı: Elm, – 1980. – s.181.
[26] Yenə orada, – s.142

Məmməd Cəfər yazır: "Çexovun əsərlərində müxtəlif əqidəli və müxtəlif vəzifəli ziyalıların – həkim, müəllim, mürəbbi, mühəndis, tələbə, jurnalist, müxbir, xırda çinovnik, həmçinin aşağı dərəcəli inzibati işçi və malikanə xidmətçilərinin, bir sözlə, əlavə gəlir yeri olmayan, cüzi maaşla dolananların həyatı, məişət və şüuru da çox geniş yer tutur. Belə əsərlərdə güzəranı aylıq maaşdan və taleyi hakim dairələrdən, rəislərdən, müəssisə müdirlərindən, malikanə və ya fabrik-zavod sahiblərindən asılı olanların psixologiyası, mülkədar, tacir, iri çinovnik, hətta kəndli psixologiyasından belə kəskin surətdə fərqlənir"[27] "Ömrü boyu özünü xana qul" hesab edən Novruzəlinin də ("Poçt qutusu"), həyatını büsbütün dindən asılı vəziyyətə salan Usta Zeynalın da ("Usta Zeynal"), dolanışıq və şəriətin sosial şüurdan məhrum qoyduğu Kərbəlayi Məmmədəlinin də ("İranda hürriyyət"), mühitin mənən aşıtdığı Kəblə Məmmədhüseynin də ("Quzu") və s. – Mirzə Cəlil tərəfindən kəşf olunan "kiçik adam"ların psixologiyaları bir-birindən tam fərqlidir. Bu obrazlar bütövlükdə, milli müsəlman dünyasının sakinlərini təqdim və təhlil edir.

Çexovun "Kiçik zabit Prişibeyev", "Maska", "Buqələmun" və s. kimi hekayələrində fərdi psixologiyalarla yanaşı, ümumən cəmiyyət psixologiyasının təsvirini analoji şəkildə C.Məmmədquluzadənin "Nigarançılıq", "Sirkə", "Bəlkə də qaytardılar" və s. kimi hekayələrində də toplumun mental xarakteri və psixologiyasına diqqət olunmasında görmək olar.

A.P.Çexovun yetkin dövr hekayələrində modernizm əlamətlərinin təzahürünü tədqiqatçılar C.Məmmədquluzadənin son dövr hekayəçiliyində də müşahidə etmişlər. Çexovun "Qılaflı adam" hekayəsində psixoloji portretini yaratdığı: hər şeyi çərçivədə görən, qəlibə salan "qılaflı" adamlar çar rejiminin törətdiyi bədbəxt, faciəvi insanlardır. C.Məmmədquluzadənin "Zırrama" hekayəsində kəşf elədiyi, portretini cızdığı: könüllü olaraq özünü asılı vəziyyətə salan, böyük-böyük adamlara yarınmaq xəstəliyinə tutulan "zırramalar" isə milli müsəlman dünyasının törətdiyi, "Vətənimizin yetirdiyi meyvələr"dir. Gülünclüyünü göstərməklə birlikdə Molla Nəsrəddin

[27] Məmməd, C. XIX əsr rus ədəbiyyatı: [3 cilddə] / C.Məmməd. Bakı: Maarif, – c.I. – 1975. – s.259

bu insanların psixologiylarına yol axtarır, hardasa qəhrəmanlarını anlamağa çalışır. C.Məmmədquluzadənin bu dövrdə yazdığı bir çox hekayələri: "Buz", "Zəlzələ", "Qoşa balınc", "Saqqallı uşaq", "İki alma", "İki qardaş", "Proletar şairi", "Atlar dayandı", "Toy" və s. realist-psixoloji zəmini ilə yanaşı, rəngarəng simvolistik vurğulara da malikdir.

Üçüncü fəslin son paraqrafında ***"C.Məmmədquzadə psixologizminin yaranma və ifadə üsulları"***ndan bəhs olunur. Bütünlükdə klassik Azərbaycan ədəbiyyatının tarixi inkişafı ilə hazırlanmış C.Məmmədquluzadə psixologizmi realist ədəbiyyatın başlıca təzahür üsulu kimi ərsəyə gəlmiş, formalaşmışdır. C.Məmmədquluzadənin yaradıcılıq üslubunda özünəqədərki realist Azərbaycan və rus ədəbiyyatı klassiklərinin ədəbi irsində mövcud olmuş psixoloji təhlil üsulu və psixologizm təzahürlərinin zəngin çalarları, yaradıcı sintezi görünür. Bununula belə, C.Məmmədquluzadənin psixologizminin elə cəhətləri, xüsusiyyətləri vardır ki, özünəqədərki heç bir yazıçıda müşahidə olunmur.

C.Məmmədquluzadənin ilk əsərlərindən olan, realizmin şedevr nümunəsi "Danabaş kəndinin əhvalatları" əsərində (1994) artıq psixologizmin dərindən inikası və zəngin ifadə vasitələrinə rast gəlirik. Hər şeydən əvvəl, yazıçı povestdə xalq ədəbiyyatından gələn ünsürləri yazılı ədəbiyyatın üstünlüyü ilə birləşdirməyə çalışmışdır. Povestin təhkiyə üslubuna "nağılçılıq" və "nağılçı" obrazı xasdır. C.Məmmədquluzadə Azərbaycan kəndini, onun problemlərini dərindən bilir və bunu Lağlağı Sadıqla Qəzetçi Xəlilin dilindən şərtən "Danabaş" adlandırır. Burda artıq yazıçının hadisələrə birbaşa satirik münasibəti hiss olunur. Yazıçı Məhəmmədhəsən əmi və Xudayar bəy surətlərində ümumiləşdirdiyi kəndlinin də, ağaların da xarakterinə, psixologiyasına yaxşı bələddir. Kənddəki patriarxal münasibətlərin zərbəsinin ən çox qadınlara dəyməsi povestdən də aydın görünür. Bunu isə yazıçı qadın obrazlarında, ilk növbədə Zeynəb surətində ümumiləşdirir.

Əsərin müqəddiməsində "nağılçı"nın duyğularının, daxili düşüncələrinin bilavasitə təqdim olunması psixologizm vasitəsidir; kəndin özündən olan obraz vasitəsilə yazıçı reallıq hissini artırmağa çalışır. Nağılçının psixoloji mövqeyini neytrallaşdırmaqla, yazıçı eyni

zamanda özünün hadisələrə satirik münasibətini həmin "obyektivliy"in altında gizlətməyə nail olur. Bütünlükdə əsərdə bu satirik psixologizm üsulu qorunub-saxlanır.

Əsərdə "nağılçı" obrazı nəinki yaxşı nağılçıdır, təhkiyəçidir, həm də dərin təhlilçidir. Həm ümumilikdə Danabaş camaatının, həm də ayrı-ayrı surətlərin təhlilində yazıçı "obyektiv" danışmaq vəzifəsini ona həvalə etmişdir. Epik təhkiyə və təsvirlə yanaşı, o, psixoloji təhlil üsuluna da müraciət edir. "Bunu bilmək asandı ki, bu şəxs xırda adam deyil. Əvvələn ondan ötrü, kəndlilər söhbətin şirin məqamında bunu görcək durdular ayağa, hələ bəlkə baş da yendirdilər. İkincisi də, məlumdur ki, indi Məhəmmədhəsən əminin gözünün işığı tək bircə eşşəyidir... Pəs belə güman eləmək lazımdı ki, Məhəmmədhəsən əmi eşşəyi heç kəsə verməzdi ki, bir yana aparıb heyvanı yorsunlar. Amma bu şəxs istəyən kimi Məhəmmədhəsən dəsti getdi eşşəyi çıxardıb gətirsin..."[28] Bu səhnədə "nağılçı" ani psixoloji situasiyanı təhlil edir, Danabaşlıların Xudayar katdaya münasibətinə şərh verir.

Məhəmmədhəsən əmini təqdim edərkən, "nağılçı" eyni zamanda onun daxili dünyasına girir, sanki problemlərini bölüşür, dərdinə şərik olmağa çalışır; Zeynəbin təqdimində də "nağılçı" psixoloji şərh yolunu tutur, obrazın vəziyyətinə şərik olur. "Obyektiv" olmağa çalışan "nağılçı" hətta Xudayar bəyi də qınamır, daxilən onu anlamağa çalışır. Xudayar bəyi zülmkar əməllərinə görə oxucu qınayır, satirik münasibəti ilə yazıçı ifşa edir, "nağılçı" isə bu əməlləri təhlil edə-edə daha böyük mətləblərə işıq salır. Beləliklə, əsərdəki psixoloji təhlillər fərdlərin səciyyəsindən ümumi cəmiyyətin və sosial mühitin əsl simasının açılmasına qədər davam edir. Yaşar Qarayev yazır: "İctimai-publisist "səyahətnamələr" dövründə yazılan "Danabaş kəndinin əhvalatları"nın üslubu özü də "tədqiqatçılıq" ünsürü ilə zəngindir. Lakin ədib müxtəlif ölkələrə ənənəvi səfəri indi adi adamların mənəvi səltənətində davam etdirir. Belə ki, "Danabaş" coğrafi ərazi olmaqdan daha çox mənəvi, psixoloji və əxlaqi ərazi vahidi kimi nəzərə çarpır"[29].

---

[28] Məmmədquluzadə, C. Əsərləri: [6 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – c.I. – 1983. – s.12

[29] Qarayev, Y. Realizm: sənət və həqiqət / Y.Qarayev. – Bakı: Elm, – 1980. – s. 182

“Adi adamların mənəvi dünyasına girmək” üçün C.Məmmədquluzadə realist ədəbiyyatın zəngin psixologizm təcrübəsindən istifadə edir. Əsərdə bəzən birbaşa obrazın daxili düşüncələrinə yer verir. İkinci bir üsul budur ki, psixoloji vəziyyət hərəkət və dialoqlarda açılır. Xudayar bəyin hiyləgərliklə qarşı-qarşıya qoyduğu ana və oğul arasındakı gərgin mükalimə buna misal ola bilər. Üçüncü bir vasitə isə obrazın psixoloji dünyasının dolayısı yolla, “nağılçı”nın təhkiyəsində təqdim olunmasıdır.

“Nağılçı” obrazı C.Məmmədquluzadənin bütünlükdə yaradıcılığında mühüm yer tutur. C.Məmmədquluzadənin yaratdığı XX əsrin Molla Nəsrəddini də həmin xüsusiyyətlərə malikdir. İroniya və özünə-ironiya onun əsas silahıdır. C.Məmmədquluzadənin “Molla Nəsrəddin”də dərc olunan bədii felyetonları satirik psixologizmlə aşılanmışdır. Molla Nəsrəddin obrazı tədricən yazıçının hekayələrinə də keçir.

C.Məmmədquluzadə psixologizmin dünya ədəbiyyatı təcrübəsində işlənən bir çox ifadə vasitələrindən – müqayisə və paralelizmlərdən, “yuxu” motivindən, bədii dilin semantikasından, “sükut”dan və s. üsullardan bəhrələnmişdir. Dissertasiyada həmin məqamlar yazıçının hekayələrindən konkret misallarla ətraflı şərh olunur.

Bununla da aydın görünür ki, böyük realist sənətkar C.Məmmədquluzadə nəsrində zəngin psixologizm mündəricəsi və bunun rəngarəng ifadə üsulları yazıçının həyatı dərindən müşahidələrindən irəli gəlir, eyni zamanda mahir qələm ustası olaraq milli və dünya ədəbiyyatının xəzinəsindən bacarıqla, yaradıcı şəkildə bəhrələndiyini göstərir. A.P.Çexov psixologizmi ilə bir sırada C.Məmmədquluzadə psixologizmi də öz xalqının milli realist nəsrinin zirvəsini təmsil etmiş, dünya ədəbiyyatı xəzinəsini zənginləşdirmişdir.

*Üçüncü fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.*[30]

Dissertasiyanın **“Nəticə”** bölməsində tədqiqata yekun vurulur, əldə olunan elmi qənaətlər ümumiləşdirilir. Göstərilir ki, psixologizm müasir ədəbiyyatın vacib komponentidir. Dünya ədəbiyyatında

[30] İddiaçının avtoreferatın sonunda təqdim olunmuş əsərlərinin siyahısında: №4; 5; 8; 11; 12; 15; 20.

realizm məcrasında xüsusən inkişaf etmiş, klassik yazıçıların yaradıcılığında mühüm yer tutmuşdur. Böyük rus yazıçısı A.P.Çexov və Azərbaycan klassiki Cəlil Məmmədquluzadənin yaradıcılığı realist ədəbiyyatda psixologizmin zənginliyini, rəngarəngliyini, təkrarsızlığını təcəssüm etdirir. Azərbaycan və rus ədəbiyyatlarının tarixi-tipoloji müqayisədə öyrənilməsi hər iki xalqın ədəbiyyatının zənginləşməsinə xidmət edir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır:**


1. Anton Pavloviç Çexov və müasirlik // – Bakı: Dil və ədəbiyyat BDU, Beynəlxalq elmi-nəzəri jurnal, – 2013. №4(88), – s.205-207.
2. Bədii ədəbiyyatda psixoloji təhlil // – Bakı: Dil və ədəbiyyat BDU, Beynəlxalq elmi-nəzəri jurnal, – 2014. №3(91), – s.172 - 174.
3. Bədii ədəbiyyatda obrazların monoloqunun psixoloji təsviri // Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubleyinə həsr olunmuş Respublika Elmi-Nəzəri konfrans, – BDU, – 19 may, – 2014, – s.132-141.
4. Ədəbiyyatın tədrisində milli dəyərlərin qorunması // Təhsildə mənəvi-əxlaqi dəyərlər: Harmonik şəxsiyyətin inkişafı, Beynəlxalq Konfrans, – Bakı, Azərbaycan Respublikasının Təhsil Problemləri İnistitutu, – 5-6 dekabr, – 2014. – s. 101
5. Cəlil Məmmədquluzadə yaradıcılığında milli və bəşəri dəyərlər // Tədris Prosesinin təkmilləşdirilməsi və müasir təhsil Konsepsiyaları, Beynəlxalq elmi konfrans, – Naxçıvan, – 16-17 dekabr, – 2014, – s. 211-212.
6. M.F.Dostayevski yaradıcılığında psixologizm üslubu // Azərbaycan xalqının Ümumilli Lideri Heydər Əliyevin 92 illiyinə həsr olunmuş gənc tədqiqatçıların III Beynəlxalq elmi konfrans, – Bakı, Qafqaz Universiteti, – 17-18 aprel, – 2015, – s.1223-1224.
7. Psixologizm: nəzəriyyədən bədii yaradıcılığa doğru // – Bakı: Dil və ədəbiyyat jurnalı, BDU, Beynəlxalq elmi-nəzəri jurnal, – 2015. №1(93), – s 237-239.

8. Bədii ədəbiyyatda duyguların ahəngi – psixologizm // – Bakı: Elm və təhsil, Filologiya məsələləri. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, – 2015. № 7, – s.333-338.
9. Klassik Rus və Azərbaycan ədəbiyyatında “kiçik” insan obrazlarının psixoloji tərəfləri // – Bakı: BDU, Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2015. №4(96), – s.199-201.
10. Психологизм в творчестве А.П.Чехова и Джалиля Мамедкулизаде // – Украина: Тернопільский національний педогогічний університету імені Володимира Гнатюка Серія літературознавство: / за ред.д-р ф.н., проф. Ткачука М.П.-Тернопіль: ТНПУ, – 2015. Вип. № 43, – s.258-268.
11. A.P.Çexov tərzində imperssionizm // Bəxtiyar Vahabzadə və Azərbaycan filologiyasının aktual problemləri, Beynəlxalq elmi konfrans, – Bakı: BDU, – 29 oktyabr 2015, – s. 244-247.
12. Klassik Rus və Azərbaycan ədəbiyyatında satirik uslübun psixoloji cəhətləri // – Bakı: BDU, Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2016. №1(97), – s.263-266.
13. Anton Pavloviç Çexov yaradıcılığında bir anın psixoloji faciəsi // – Bakı: AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2017. №19, – s.314-320
14. Cəlil Məmmədquluzadə satirasında psixologizm // Əbdülrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illik yubleyinə həsr olunmuş “ XXI əsrdə elm və təhsil: nəzəriyyə və təcrübə”, Beynəlxalq elmi-praktik konfrans, – Turkiyə: Qars, 20-21 fevral, – 2020, – s.28-30.
15. Qərb ədəbiyyatında psixologizm // The V international scientific conference dedicated to the 110 th anniversary of Rasul Rza – Stockholm,Sweden, – 25-26 iyul, – 2020, – s.105-108.
16. Psychologism and Anton Pavlovich Chekov in russian literature // Закарпатські філологічні студії, – 2021. №15, – pp.244-248.
17. Psychologism – in time frame // Psychologism – in time frame // Materials of the 39 th International Scientific and Practical Conference "Modern aspects of modernization of science:

status, problems,development trends", – Gothenburg Sweden: – December 7, – 2023, – pp.489-495.

18. Ədəbiyyatda psixologizm – insan və cəmiyyət problemi // Ümummilli Lider Heydər Əliyevin 100 illik Yubileyinə həsr olunmuş "Şəxsiyyət, cəmiyyət və dövlət XIX əsrdə: Qlobal çağrışlar və inkişaf prespektivləri" mövzusunda Sosial Elmlər üzrə beynəlxalq fənnlər arası Elmi konfrans, – Bakı, – 05-06 oktyabr, – 2023, – s.349
19. Эволюция психологизма в Азербайджанской художественной прозе // ЯЗЫК. КУЛЬТУРА. ПЕРЕВОД: межкультурная коммуникация в эпоху Цифровых технологий. Материалы Международной научно-практической конференции кафедры теории и практики перевода филологического факультета, – 28 марта, – 2025, – с.354-361.
20. Приемы психологизма в русской художественной прозе // Русский язык и русская литература в цифровую эпоху, коллективная монография // – Московский государственный лингвистический университет; под ред. И.А.Краевой и др. – Казан: Бук, – 2026, 256 с. – с. 246-252.
21. Psixologizm – tarixi inkişaf və nəzəri yanaşma // – Bakı: AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2026. №1, – s.360-364.

Dissertasiyanın müdafiəsi 29 iyun 2026-cı il tarixində saat 14⁰⁰ Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Slavyan Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.13 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəh. S. Rüstəm 33.

Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Slavyan Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 08.05.2026

Kağızın formatı: A5

Həcm: 43006 işarə

Tiraj: 100